

İSMAYIL MƏRCANLI İMANZADƏ

## PEYĞƏMBƏR ƏFƏNDİMİZ

Yeri-göyü nəqş edən Tanrımıza həmd olsun,
Səni bizə bəxş edən Tanrımıza həmd olsun!
Dirilik çeşməsidir köksün, Ya Rəsulallah,
Müqəddəsdir-əzizdir ismin, Ya Rəsulallah!

La İlahə İlləllah, Məhəmməd Rəsulallah,
Saf eşqinlə nur saçır kainat, Rəsulallah!
Salamlar olsun Sənə, Peyğəmbər Əfəndimiz,
Sevgisi çiçək kimi təzə-tər Əfəndimiz!

Salamlar olsun Sənə, məramın nə gözəldir,
Kəbən, Məkkən, Mədinən-kəlamın nə gözəldir!
Hamımız pay umuruq Sənin mərhəmətindən,
Qəlbimiz vəcdə gəlir ülvi məhəbbətindən!

## SEVƏSƏN

Yoxdur ülvi məhəbbətin yozumu,
Eşq əridər tənhalığın buzunu.
Şıltaq qızın çəkmək olmur nazını,
Bəxtin vura, "köləsini" sevəsən.

Çoxlarına bəla gəlir gözəldən,
Baxışlardır duyğuları közərdən.
Göz həmişə sirr gizlədir əzəldən,
Qəlb nur saça, şöləsini sevəsən.

Bu qız hələ xiffətindən üzülən,
Sübh şehimi kipriyinə düzülən?
Könül versə yanagına süzülən
Gözlərinin giləsini sevəsən.

Görən nə vaxt göz açıbdır bu qönçə,
Qaşlar kaman, saç şəlalə, bel incə.
Əfsunundan çıxamaq olmaz ölüncə,
Sevəndə də beləsini sevəsən...

## DAŞA SÖYKƏNƏN GƏLİN

Bağrına basdığın daş
Yer-göy dilə gəlsə də,
Lap dərdindən ölsə də,
Dinib danışan deyil.
Ha yalvar, ha dilə tut
Sönmüş ocaq kimidir,
Bir də alışan deyil.
Onun daş yuxusunu
Poza bilən tapılmaz.
Əzəl gündən belədir,
Ölümün mənasını
Yoza bilən tapılmaz...
Ağlama, göz yaşıyla
Göyərən deyil bu daş.
Getsən dalınca düşüb,
Yüyürən deyil bu daş.
Bir məzar sükutunda
"Közərən" kədərdi o.
Nə danışıb-dinəndi,
Nə "gəldi-gedərdi" o.
Bu daş, nakam eşqinin
Möhlət-aman bilməyən
Ölümə qarğışıdır.
Bu daş ağlar qəlbinin
Qarlı-buzlu qışıdır...
Söykən səbrinə, qoyma
Nə qəlbinin atəşi,
Nə külü olsun bu daş.
Haqqdan üzmə əlini,
Qoy, sənin ismətinin
Heykəli olsun bu daş!..

## HACI QARAMAN

*Müqəddəs ruh sahibi olan Hacı Qaraman babamıza övlad sevgisi ilə*

Qəribəm, qəlbimi sızladanda qəm,
Mübarək isminə üz tuturam mən.
Bilənlər bilir ki, türk oğlu, türkəm -
Könül dastanımdır Hacı Qaraman.

Sanmayın dil açan naləm-ahımdır,
Həm şanlı keçmişim, həm sabahımdır.
Məkkəm, Mədinəmdir-qibləgahımdır -
Dinim-imanımdır Hacı Qaraman.

Mərd igidlər məskəni-obam Hacı Qaraman,
Odum, suyum, torpağım-havam Hacı Qaraman.
Görən səsim-avazım gedib sənə çatırmı -
Ocağı yalqız qalan, babam Hacı Qaraman.

Şanlı kitabədir məscidi-damı,
Cəddi-kəraməti dirilik şamı.
Ulu ocağında saflaşır hamı -
Səbrim-gümanımdır Hacı Qaraman.

Ruhu Qarabağda sütunum-tağım,
Hüsnünə heyrandır aranım-dağım.
Çələbi yurdunda ulu torpağım -
Elim-ünvanımdır Hacı Qaraman.

Bir də Cəbrayıla düşəndə yönüm,
Torpaqda sünbülə dönəcək dənim.
İsmayıl deyir ki, əzəldın mənim -
Andım-amanımdır Hacı Qaraman,
Sahib-zamanımdır Hacı Qaraman.

## GEDƏK SÖZ DİRİLƏN YERƏ

Hardan gəldin bu qapısı-
Bacası hörülən yerə?
Bir də düşməz haqq işığı
Məhəbbəti uralanıb,
Sevgisi dərilən yerə.

Burda sütunlar yıxılıb,
Halallıq küncə sıxılıb.
Bir bölük şeytan yığılıb,
Tanrı öldürülən yerə.

Gördüyüm daş-divar da yad,
Ot bitməyən yerdə nə dad?
Yaxın düşə bilərmi od,
Ocaq söndürülən yerə?

Yetişmədin diləklərə,
Səsin çatmır mələklərə.
Gəl, qoşulub küləklərə
Gedək söz dirilən yerə...

## BAXIŞLARIM

Gözlərimdən-gözlərinə
cığır salıb baxışlarım.
Qaşlarında düyümlənib,
fikrə dalıb baxışlarım.
Soyuqluğun gecə-gündüz
ovxalayıb sıxır məni.
Gözlərində üşüyürəm,
ürəyinə çağır məni.

## QALMIŞAM

Hər bəd niyyət qana həris bir "qayçı",
Şirin yalan xoş simalı "qalayçı".
Yaxşılığın "dəyirmanı" harayçı,
Acı sözü uda-uda qalmışam.

Kimlərinsə mərhəməti bir anlıq,
Kimlərinsə ilıq sözü "yavanlıq".
Üstümüzə ayaq aşıb yamanlıq,
Ürəyimi tuta-tuta qalmışam.

## ALDATMA ÖZÜNÜ...

Ötəri istəyin üstə azca əs,
Əgər bu sevgiysə közü hanı bəs?
İsitməz ürəyi hər yersiz həvəs -
Aldatma özünü, bu sevgi deyil.

Bulanıq su kimi durulmaz axsa,
Bir çiçək bitirməz min il də yağsa.
Ruhunda bir leysan havası yoxsa -
Aldatma özünü, bu sevgi deyil.

Küləksə, hər səmtə əsən de, ona,
Ömürdən günləri kəsən de, ona.
Sevgidən başqa nə desən de, ona -
Aldatma özünü, bu sevgi deyil.

Gözləmə, gümanın axırı olmur,
Həsrətin yüngülü, ağırı olmur.
Belə sevdaların axırı olmur -
Aldatma özünü, bu sevgi deyil.

## BU BƏLALI SEVGİ...

Gizli gəlişindən xəbərsiz idim,
Qəfildən yoluma çıxdı bu sevgi.
"Bəlkə göydən enmiş mələkdir"-dedim,
Gözümdən-könlümə axdı bu sevgi.

Bir göz qırpımında qanıma keçdi,
Közərdə-közərdə dindirdi məni.
Sədləri adlayıb yanıma keçdi,
Hərdən "cin atı"na mindirdi məni...

Arxamca sürünən kölgə kimiydi,
Yaxamdan əlini çəkən deyildi.
Cavabı bilinməz "bəlkə" kimiydi,
Qıvrılıb qarşımda çökən deyildi.

Bir az fırtınaya, bir az yağışa,
Bir az da tufana bənzəri vardı.
Gedəndə dilində döndüm qarğışa,
Ruhumu özüylə çəkib apardı...

Neyləyim... yanımdan dinməz ötmədi,
Məni dilə tutub yola gətirdi.
Qovsam da vaxtında çıxıb getmədi,
Axırda başıma bəla gətirdi...

## GEDİRSƏN…

Durmuşam bir eşqin yol ayrıcında,
Gedirsən…nə deyib saxlayım səni?
Əzəlki istəyə, əzəlki anda
Necə bənd eləyim, bağlayım səni?

Gedirsən…həsrətin sinəmi sıxır,
Arxanca yüyürən ürəyimdimi?
Gedirsən…gözlərim dalınca qaçır,
Qatara gecikən sərnişin kimi…

## ÇAYIN SAHİLİNDƏ BİR QIZ AĞLAYIR

Siyah saçlarını oynadır külək,
Qəmli sinəsindən asılıb bilək.
Sanki göydən enmiş mələkdir, mələk
Nədənsə dayanıb yalqız ağlayır-
Çayın sahilində bir qız ağlayır.

Nəmli gözləriylə baxır sulara,
Bilən yox fikrində üz tutub hara.
Dönüb sərt küləyə, çevrilib qara,
Göyərmiş əlləri bumbuz, ağlayır-
Çayın sahilində bir qız ağlayır.

Əsir yarpaq kimi sızladıqca can,
Qəfil bir ölümmü axtarır hər an?
Asılıb durubdu göz yaşlarından,
Elə bil bənövşə, nərgiz ağlayır-
Çayın sahilində bir qız ağlayır.

Qəlbindən keçəni suya danışmır,
Çöküb çöhrəsinə həya-danışmır.
Nisgili gəlməyir saya-danışmır,
Gah dodaq səyriyir, gah üz ağlayır-
Çayın sahilində bir qız ağlayır.

Bəlkə o, cavabsız eşqə əsirdir,
Bəlkə bir kimsəsiz yetim-yesirdir?
Anlamaq olmur ki, bu necə sirdir,
Lal haray hıçqırır, avaz ağlayır-
Çayın sahilində bir qız ağlayır.

İndi dünya ona qəfəs kimi dar,
Halına acımır nə dost, nə də yar.
Allahım, gəl onu özünə qaytar,
Dil dönüb kösövə, ağız ağlayır-
Çayın sahilində bir qız ağlayır.

Ədalət.- 2020.- 20 fevral. S. 8.